# Ölkəmizdə vətəndaş birliyi və həmrəyliyi möhkəmlənib, bütün xalq bir amal uğrunda birləşib

## 2015-Cİ İL TARİXİMİZƏ AZƏRBAYCANIN DEMOKRATİK İNKİŞAFININ YENİ SƏHİFƏSİ KİMİ YAZILDI

Artıq 2015-ci ilin son günündəyik. Arxada qalan hər gün, hər ay, hər il bir hesabat xarakteri daşıyır. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bayram tədbirləri keçilən yolun təhlili, perspektivlərin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Qarşılamağa hazırlaşdığımız 2016-cı illə bağlı proqnozlarımızın nikbin olması da təbii ki, ötən dövrün, xüsusilə 2015-ci ilin uğurlarının təhlilinə əsaslanır. Hansı sahəyə diqqət yetirsək, bir-birindən əhəmiyyətli uğurların şahidi oluruq. Təbii ki, düzgün təmələ əsaslanan siyasət uğurların davamlılığını qaçılmaz edir.

2015-ci il ölkəmizin ictimai-siyasi həyatında hansı uğurlarla yadda qaldı? Bir məqamı xüsusi qeyd edək ki, cari il parlament seçkiləri ili kimi səciyyələnir. Azərbaycanın demokratik inkişaf tarixinə yeni səhifə açan 1 noyabr parlament seçkilərində xalqın yüksək fəallığı dövlətimizin başçısı İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında söylədiyi bu fikirləri bir daha təsdiqlədi: "Azərbaycanda sabitlik təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək."

Azərbaycanın bu uğurları beynəlxalq təşkilatların hesabatlarında, sorğu mərkəzlərinin keçirdiyi sorğuların nəticələrində də öz əksini tapdı. Məlum olduğu kimi, dünyada sosial, siyasi və iqtisadi tədqiqatlar üzrə zəngin təcrübə toplayan beynəlxalq təşkilatlar adətən siyasi kampaniyaların keçirildiyi ölkələrdə ictimai-siyasi vəziyyəti, xalqla-iqtidar arasındakı birliyi öyrənmək üçün təhlillər, araşdırmalar aparırlar. ABŞ-ın tanınmış "Arthur J. Finkelşteyn & Associates" şirkətinin ölkəmizdə parlament seçkiləri ərəfəsində apardığı sorğuda iştirak edən 5,1 milyon Azərbaycan vətəndaşı seçici kimi ölkəmizdəki mövcud ictimai-siyasi sabitliyin davamını istəmiş, Prezident İlham Əliyevin siyasətini dəstəkləmişdilər.

O da məlumdur ki, ölkəmizdə dəfələrlə sorğu aparan ABŞ-ın nüfuzlu "Gallup İnternational" təşkilatının təhlillərində də Azərbaycan xalqının dövlətimizin başçısı İlham Əliyevə inamı, ölkənin inkişaf səviyyəsinə vətəndaş dəstəyi ifadəsini tapmışdır. "Gallup İnternational"ın dünyanın müxtəlif ölkələrində eyni mövzu üzrə apardığı sorğunun nəticələrinə görə Azərbaycan ilk onluqda yer almışdır. Ölkələr üzrə inkişafın dinamikasını əks etdirən statistikada deyildiyi kimi, ilk onluqda təmsil olunmaq o deməkdir ki, mövcud siyasətə, tərəqqiyə nikbinliklə baxan ölkə əhalisi gələcəyə böyük ümid bəsləyir, qarşıdakı illərdə əhalinin rifah səviyyəsinin daha da yüksələcəyinə inamında qətiyyətlidir.

Daha bir beynəlxalq sorğuda da ölkə əhalisinin Prezident İlham Əliyevlə həmrəyliyi nümayiş olunmuş, iştirak edənlər ulu öndər Heydər Əliyev ideyalarının davamına tərəfdar olduqlarını bildirmişdilər. Belə ki, Fransanın "Opinionway" Yenilikçi Araşdırma Şirkəti 2015-ci il parlament seçkiləri ərəfəsində Azərbaycanda ictimai rəy sorğusu keçirmişdir. Sorğuda iştirak edən 1200 respondentin 58 faizi hazırda ölkə üzrə aparılan siyasi, iqtisadi, sosial islahatların düzgün istiqamətə yönəldiyini təsdiqləmişdir. Milli təhlükəsizliyin təmin olunması (71,4), cinayətkarlıqla mübarizə (68,4), insan haqlarının vəziyyəti (69,8), təhsilin səviyyəsi (48,8), korrupsiyaya qarşı mübarizə (71,2) ilə bağlı suala müsbət cavab verənlərin sayından da aydın oldu ki, Azərbaycan düşünülmüş, təkmil inkişaf konsepsiyası üzrə strategiyasını müəyyənləşdirir və bu istiqamətdə qazandığı uğurlar xalqın rifahına xidmət etdiyi üçün milyonlar tərəfindən dəstəklənir. Ölkədəki siyasi sistemin fəaliyyətindən razı qalanlar da respondentlərin yarısını təşkil etmişdir: 50,8 faiz.




Bu kimi sorğuları xeyli sayda sadalamaq olar. Təbii ki, qeyd etdiyimiz kimi, müsbət göstəricilər Azərbaycan dövlətinin uğurlu siyasətindən, atılan hər bir addımın əsasında vətəndaş amilinin dayanmasından irəli gəlir. Sorğularda ümumi fikir budur ki, xalqın Prezidentinə etimadının böyük olduğu bir ölkədə xalq-iqtidar birliyi sarsılmazdır. Hər sahədə təcrübəsi nümunə göstərilən Azərbaycan xalq-iqtidar birliyinin möhkəm, sarsılmaz olduğu bir ölkə kimi təqdir olunur. Xalq-iqtidar birliyinin möhkəm olduğu bir ölkədə ictimai-siyasi durumun sabitliyi, insanlarda xoş əhval-ruhiyyənin mövcudluğu və gələcəyə böyük inamla baxmaq hisləri qaçılmazdır. 1 noyabr parlament seçkilərində xalqımız "Yeni hədəflərə doğru" devizi ilə seçkilərə qatılan Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olmaqla ümumilikdə həyata keçirilən siyasətə dəstəklərini nümayiş etdirdilər.

"Yeni Azərbaycan Partiyası siyasi sistemimizin ən əsas sütunudur və ən böyük təsirə malik olan partiyadır. Ölkəmizdə siyasi islahatların dərinləşməsində də Yeni Azərbaycan Partiyasının xüsusi rolu və məsuliyyəti vardır... Biz gələcəyə baxırıq. Bu gün Azərbaycanda icra edilən layihələr gələcəyə yönəlibdir. Biz elə etməliyik ki, bundan sonra da onilliklər ərzində ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin edilsin. Şübhə etmirəm ki, biz buna nail olacağıq." Yeni Azərbaycan Partiyasının V qurultayında dövlətimizin başçısı İlham Əliyevin söylədiyi bu fikirlər ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolunun ümumiləşdirilmiş ifadəsi olmaqla yanaşı, eyni zamanda qarşıdakı illər üçün müəyyənləşdirilən prioritetlərə bir baxış kimi dəyərləndirildi. Ümumi fikir budur ki, Azərbaycan demokratiya yolu ilə inamla irəliləyir. Nəinki ölkənin, bütövlükdə regionun aparıcı siyasi təşkilatına çevrilən Yeni Azərbaycan Partiyasının istər seçkilərə hazırlıq mərhələsində, istərsə də səsvermədə yüksək fəallığı, ən əsası partiyanın sədri, ölkə Prezidenti İlham Əliyevin son on iki ildə gördüyü işlər, əldə olunan uğurlar qələbə üçün stimul oldu. Ölkəmizdə demokratik şəraitin mövcudluğu hər bir siyasi partiyanın seçkilərə öz namizədi ilə qatılmasında, təbliğat-təşviqat prosesini lazımi səviyyədə həyata keçirməsində özünü təsdiqlədi. Hər zaman qeyd olunan bu fikri xüsusi vurğulamaq istərdik: siyasət real məsələlər, konkret işlərdir. Ölkə ictimaiyyəti reallığa yüksək dəyər verərək, inkişaf, tərəqqi yolunda inamla irəliləyən Azərbaycanımızın gələcək uğurlarının davamlılığını təmin etmək üçün düzgün seçim etdi, seçki hüququndan istifadə edərək, inkişafa dəstək oldu. Yeni Azərbaycan Partiyasının seçkilərdə növbəti qələbəsi bir daha bu reallığı təsdiqlədi ki, yeni hədəflərə doğru inamla irəliləyən bir partiyaya xalqın sevgisi şəksizdir. Baş nazirin müavini, YAP-ın sədr müavini-icra katibi Əli Əhmədov Trend-ə müsahibəsində Azərbaycanın ayrı-ayrı sahələrdə qazandığı uğurların fonunda "2015-ci il Azərbaycanda növbəti demokratik şəraitdə keçirilən parlament seçkiləri kimi yadda qaldı. Prezident İlham Əliyevin rəhbəri olduğu Yeni Azərbaycan Partiyası bu seçkilərin mütləq qalibi oldu. Seçkilərdəki bu parlaq qələbəni Azərbaycan Prezidentinin davam etdirdiyi siyasətin bugünkü nailiyyətlərinə ölkə vətəndaşlarının adekvat münasibəti hesab etmək olarmı? Ümumiyyətlə, 2015-ci ili YAP üçün nə dərəcədə uğurlu il saymaq olar? 2016-cı ildə partiyanın fəaliyyətinin əsas prioritetləri nə olacaq?" sualına cavabı Yeni Azərbaycan Partiyasının bu günümüzün uğurlarına söykənərək gələcəyə hansı inamla irəlilədiyinə işıq salır. "Yeni Azərbaycan Partiyası öz fəaliyyətini heç zaman yalnız seçkilərlə məhdudlaşdırmır. YAP Azərbaycanın ictimai-siyasi həyatında həmişə yaxından iştirak edib, ictimai-siyasi proseslərə öz imkanları daxilində təsir göstərib. Təbii ki, 2016-cı il bu mənada istisna olmayacaq. Partiyamız qarşıdakı illərdə iqtisadi-sosial sahədə layihələrin həyata keçirilməsində yaxından iştirak edəcək" söyləyən YAP-ın sədr müavini eyni zamanda bildirir ki, vətəndaş həmrəyliyinin gücləndirilməsi, vətəndaşların Prezident ətrafında daha sıx birləşməsi, milli birliyin əldə edilməsi, xarici təhdidlərə qarşı vətəndaş birliyinin möhkəmləndirilməsi, gənclər siyasətinin gücləndirilməsi də Yeni Azərbaycan Partiyasının qarşısında duran vacib məsələlərdəndir. Hər birimiz çalışmalıyıq ki, 2016-cı ildə Azərbaycanda sabitlik, əmin-amanlıq qorunub saxlanılsın. Qarşıdakı ildə YAP bu ali məqsəd naminə mübarizəsini davam etdirəcək.

Təkzibolunmazdır ki, sabitlik hər bir inkişafın əsasıdır. Bu gün Azərbaycanın beynəlxalq aləmdə ən islahatçı, demokratik ölkə, beynəlxalq tədbirlərin keçirilməsi üçün ideal məkan kimi tanınmasını və qəbul olunmasını şərtləndirən əsas amillərdən biri məhz ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin olunmasıdır. Sabitliyin mövcudluğu qanunun aliliyini təmin edir ki, bu iki amil birlikdə demokratiyanın inkişafını şərtləndirir. "Azərbaycan sabitləşdirici amildir" söyləyən cənab İlham Əliyev Azərbaycanın bu gün iqtisadi və siyasi cəhətdən ən güclü ölkə olduğunu əsaslı şəkildə qeyd edir. Dövlətimizin başçısı ötən illərin uğurları fonunda qarşıdakı illər üçün bu hədəfləri açıqlayır: "Bu gün Azərbaycanın birmənalı siyasəti- cəsarətli siyasət, xalqın iradəsinə əsaslanmış siyasət, milli maraqlar üzərində qurulmuş siyasət bizə imkan verir ki, ölkəmizin gələcəyi ilə bağlı sözümüzü böyük nikbinliklə deyək. Gələcəyə nikbinliklə baxmaq üçün kifayət qədər amil vardır." Azərbaycanın müstəqillik tarixində qazandığı uğurların fonunda təsdiq olunan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında başlıca hədəf ölkəmizi inkişaf etmiş dövlətlər sırasında görməkdir. Qarşıdakı 10 ildə bu günə qədər 3 dəfə artan ümumi daxili məhsulun daha 2 dəfə artırılması prioritet məsələ kimi öndədir. İqtisadi islahatların zamanın tələblərinə uyğunlaşdırılması qarşıya qoyulan bu kimi məqsədlərə yüksək səviyyədə nail olmağa əsas verir. Cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının V qurultayında səsləndirdiyi bu fikirləri xatırlatmaq istərdik: "Biz müstəqil ölkə kimi inkişaf edirik. Biz bundan sonra əbədi müstəqil olacağıq. Azərbaycan xalqı dünyaya sübut edib ki, müstəqil dövlətdə yaşaya, müstəqil dövlət qura, müstəqilliyi qoruyub saxlaya bilər. Son 10 il ərzində biz bu yolda böyük uğurlara imza atmışıq. Bu yolda təzyiqlər də, təxribatlar da, təhdidlər də oldu. Azərbaycanın dostları çoxdur, Azərbaycan ilə dostluq, əməkdaşlıq etmək istəyən ölkələrin sayı durmadan artır. Bu da təbiidir. Çünki Azərbaycan güclü dövlət, etibarlı tərəfdaş kimi, ədalətli mövqeyinə görə dünya miqyasında böyük şöhrət qazana bilmişdir. Ancaq buna baxmayaraq... Azərbaycanın uğurlu inkişafını həzm edə, qəbul edə bilmirlər, uğurlarımıza qısqanclıqla, paxıllıqla yanaşırlar... Son 10 il ərzində bütün təxribatlara, təzyiqlərə, böhtan kampaniyalarına baxmayaraq, biz yolumuzdan dönməmişik və dönməyəcəyik... Azərbaycan öz inkişafı, öz qətiyyəti ilə, bölgədə gedən proseslərə öz münasibətilə sübut edib ki, biz müstəqil dövlətik və biz öz maraqlarımızı qoruya bilirik." Son parlament seçkiləri Azərbaycanın müstəqil, demokratik ölkə olduğunu bir daha dünyaya nümayiş etdirdi. Atılan hər bir addımın ölkəmizin gələcəyinə xidmət etdiyini qeyd edən cənab İlham Əliyev bu fikri də hər zaman çıxışlarında önə çəkir ki, görülən işlər, tədbirlər hansısa dövlətə, təşkilata xoş gəlmək məqsədi daşımır. Azərbaycan siyasətində müstəqildir. Dünyada elə qüvvə yoxdur ki, Azərbaycan xalqının iradəsinə təsir edə bilsin: "Əgər kimsə hesab edir ki, Azərbaycanı nəyə isə təhrik etmək, sövq etmək, məcbur etmək mümkündür, səhv edir və bu səhv siyasətindən əl çəkməlidir. Son illərin tarixi bunu göstərir. Biz öz yolumuzla gedirik. Bu yol tərəqqi, inkişaf yoludur. Bu yol azadlıq-müstəqillik yoludur və biz bu uğurları bu yolda əldə etmişik."

Azərbaycanın uğurlarının bələdçisi olan, inkişafa, tərəqqiyə öz töhfələrini verən dahi şəxsiyyət Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası yarandığı gündən öz siyasi xəttinə, tutduğu yola sadiqlik nümayiş etdirərək, daim irəliyə doğru inamla irəliləyir. Hal-hazırda sıralarında ictimaiyyətin bütün təbəqələrini təmsil edən 670 minə yaxın üzvü birləşdirən YAP ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu günü-gündən möhkəmləndirməkdədir. Ulu öndər Heydər Əliyevin "YAP sınaqlardan çıxmış, böyük və şərəfli yol keçmiş, indi artıq Azərbaycan cəmiyyətində özünəməxsus yer tutmuş bir partiyadır" fikirləri milyonların partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının dünəninə, bu gününə və gələcəyinə bələdçilik edir. YAP aparıcı siyasi qüvvə kimi fəaliyyət göstərdiyi 23 il ərzində bütün qüvvə və bacarığını xalqa xidmətə yönəldərək, gələcəyə doğru inamla irəliləyir. Azərbaycanın bugünkü reallıqlarında öz payı olan Yeni Azərbaycan Partiyasının hər bir üzvü ölkəmizin qüdrəti ilə qürur duyur, inkişafa dəstək olmaq üçün ciddi səylər göstərir.

Yeni Azərbaycan Partiyasının ölkəmizdə keçirilən seçki proseslərindən uğurla çıxması bu inkişafın, tərəqqinin daha da sürətlənməsində stimul rolunu oynayır. 1998, 2003, 2008 və 2013-cü il prezident, 1995, 2000, 2005, 2010 və 2015-ci il parlament, 1999, 2004, 2009 və 2014-cü il bələdiyyə seçkiləri Azərbaycan tarixinə Yeni Azərbaycana Partiyasının qələbəsi kimi yazılıb. "Ona görə iqtidar partiyasıyıq ki, bizim siyasətimiz xalq siyasətidir. Deyə bilərəm ki, biz ümumxalq partiyasıyıq. Çünki Azərbaycanın qarşısında duran bütün məsələlərdə biz fəal iştirak edirik. Biz öz əməyimizlə bu siyasəti aparırıq" deyən Prezident İlham Əliyev eyni zamanda bildirir: "Bizim əməlimiz, bizim işlərimiz, verilən sözlərə sadiqliyimiz - bütün bunlar, əlbəttə, Yeni Azərbaycan Partiyasının nüfuzunu da qaldırır və deyə bilərəm ki, onu Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çeviribdir."

Yeni Azərbaycan Partiyasının keçdiyi yolu təhlil etsək, bu həqiqət özünü təsdiq etmiş olar ki, tarix bu partiyanı qələbələr qazanmaq üçün yaradıb. Ötən bu müddət ərzində YAP daim qalib olub, hər bir sınaqdan, çətinliklərdən qalib çıxıb və özünü Azərbaycan xalqına qaliblər partiyası kimi tanıdıb. 1 noyabr parlament seçkiləri bir daha bu reallığı təsdiqlədi. Yeni Azərbaycan Partiyasının namizədlərinə xalqın dəstəyi bir daha bu reallığı ortaya qoydu ki, zaman hər bir siyasi qüvvənin fəaliyyətinə dəyər vermək baxımından ən böyük yaddaşdır. Məhz ötən illərin uğurları partiyanın növbəti qələbəsini təmin etdi. Dövlətimizin başçısı İlham Əliyev bildirir: " Azərbaycan daha da güclü ölkə olmalıdır. Biz qüdrətli Azərbaycan dövləti qururuq və əminəm ki, quracağıq. Bütün hədəflərə çatmaq üçün bizim müstəqil siyasətimiz davam etməlidir. Xalq bu siyasəti dəstəkləyir." Təbii ki, xalq-iqtidar birliyini möhkəmləndirən əsas amil hər bir vədin konkret əməli işdə təsdiqini tapmasıdır. 23 illik şərəfli yol keçən Yeni Azərbaycan Partiyasını qarşıdakı onilliklərdə daha möhtəşəm nailiyyətlər gözləyir. Cənab İlham Əliyevin vurğuladığı kimi, əsas amal qüdrətli Azərbaycandır, müstəqillikdir, inkişafdır, sosial rifahdır.

2015-ci ilin qürurverici hadisələrindən biri budur ki, 1 noyabr parlament seçkiləri şəffaf, azad, demokratik və beynəlxalq standartlara uyğun keçirildi, Azərbaycanın demokratiya təcrübəsinin dünya ölkələrinə nümunə olduğunu təsdiqlədi. Beynəlxalq müşahidəçilərin rəylərində, dünya mətbuatında əksini tapan fikirlərə diqqət yetirdikdə Azərbaycana beynəlxalq baxışın yüksək səviyyədə olduğunun bir daha şahidi oluruq. Azərbaycan demokratiya yolunda inamla irəliləyir, düzgün təmələ əsaslanan siyasətin nəticəsi olaraq davamlı inkişaf qaçılmazdır.

✍ **Yeganə Əliyeva,**
***"İki sahil"***